**UOT 75**
**https://doi.org/10.59849/2311-8482.2025.1.339**

**AFAQ ZAMANOVA***

# NAXÇIVAN BƏSTƏKARLARININ YARADICILIQ FƏALİYYƏTİ

*Məqalədə Naxçıvan MR bəstəkarlarının fəaliyyətindən, yaradıcılıq yolundan, yaradıcılıqlarında ərsəyə gətirdikləri əsərlərin adları qeyd olunur. Azərbaycanın hər bir bölgəsinin bəstəkarlarının, o cümlədən Naxçıvan bəstəkarlarının xidməti, fəaliyyəti, yaratdıqları əsərlərdəki zəngin musiqilərin rəng çalarları Azərbaycan bəstəkarlıq yaradıcılığına böyük töhfələr vermiş, yeniliklər gətirmişdir.*

*Naxçıvan bəstəkarları arasında bəstəkar Nəriman Məmmədovun özünə məxsus yaradıcılıq yolu vardır. Nəriman Məmmədov mənalı ömrünü Azərbaycan musiqisinin təbliğinə, formalaşmasına, mənəvi tərəqqisinə həsr etmiş bir insan idi. Bəstəkar öz doğma vətəni Naxçıvanı öz musiqi əsərlərində vəsf etmişdir. Bu əsərlər – "Naxçıvan", "Araz üzərində Çənlibel Qalası", "Qızlar bulağı", "Çiçəklənən Naxçıvan", "Sirab" Nəriman Məmmədovun lirik mahnılarını Rəşid Behbudov, Şövkət Ələkbərova, Gülağa Məmmədov, Flora Kərimova və başqaları oxumuşlar. Lirik mahnılarından "Nə zaman darıxmışam","Döyünən ürək", "Yenə peşiman oluram", "Gözüm axtarır səni", "Sənin eşqin, mənim eşqim", "Səndə çoxdan gözüm var", "Kaş güləydi bəxtimiz","Ulduzun olaydım", "Küsmüşəm, dindir", "Ayrılıq olmasaydı", "Tez səni axtarıram","Mən səni axtarıram", "Mən səninəm". Bəstəkara böyük şöhrət gətirən üç musiqili komediyası Azərbaycan musiqisinin qızıl fondunu bəzəyir: "Altı qızın biri Pəri", "Məmmədəli kurorta gedir", "Qız görüşə tələsir" Musiqili Komediya Teatrında uğurla tamaşaya qoyulub. Bəstəkarın böyük şairimiz Səməd Vurğunun "Komsomol poemasının motivləri əsasında yazdığı "Humay" baleti 1981 – ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında uğurla səhnəyə qoyularaq müəllifinə böyük şöhrət gətirib.*

***Açar sözlər:*** *Professional bəstəkarlıq sənəti,lirik bəstəkar, musiqi vurğunu, muğam sirrləri, oratoriya, simfonik orkestr, xor.*

## Giriş

Naxçıvanda professional bəstəkarlıq sənəti İnqilabdan sonrakı dövrdə sürətlə inkişaf etməyə başlayır. 1937 – ci ildə dahi bəstəkarımız Üzeyir Hacıbəyovun Naxçıvana gəlişi, 1942 – ci ildə bu diyarda bəstəkar Tofiq Quliyevin rəhbərlik etdiyi caz orkestrinin fəaliyyət göstərməsi, 1959 – cu ildə Naxçıvan Dövlət Konsert briqadasının yaradılması, bəstəkar Xəlil Cəfərovun Naxçıvan şəhər uşaq musiqi məktəbində müəllim işləməsi və müntəzəm olaraq zəmanəmizin məşhur dirijoru olan Niyazinin, görkəmli müğənnilər Bülbülün, Rəşid Behbudovun, Lütfiyar İmanovun və bir çox musiqiçilərin qədim şəhərlə yaradıcılıq əlaqələri istər bəstəkarlıq, istərsə də ifaçılıq sənətinin yüksəlməsinə mühüm təsir göstərməyə bilməzdi.

## Əsas məzmun

Bu dövrdə gənc musiqiçilər, musiqi aləmində ilk sözlərini cəsarətlə deməyə hazır olan Nəriman Məmmədov, Ramiz Mirişli, Məmməd Məmmədov, Məmməd Ələkbərov, Rəşid Məmmədov, Cəfər Rəcəbov, Vahid Axundov, Naxçıvanda işləyən musiqiçilərdən Məmməd Cavadov, Bəxtiyar Kərimov ilk, sonradan populyar olan əsərlərini yaradırlar. Gənc istedadlı musiqiçilər, bəstəkarlıq sənətinə hədsiz dərəcədə həvəsləri və qabiliyyətləri olan N. Məmmədovun 1951 – ci ildə, R. Mirişlinin isə 1955 – ci ildə Üzeyir Hacıbəyov adına Azər – baycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsinə daxil olmaları, artıq Naxçıvanda professional bəstəkarlıq sənətinin başlanmasının ilk mərhələsi hesab edilir. Sevimli bəstəkarımız, Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi Nəriman Məmmədov yaradıcılığının Azərbaycan musiqi mədəniyyətinin, eləcə də Azərbaycanın ayrılmaz bir bölgəsi olan Naxçıvan musiqi mədəniyyətinin inkişafında xüsusi yeri vardır.

Nəriman Həbib oğlu Məmmədov 1927 – ci il dekabr ayının 27 – də Naxçıvan şəhərində anadan olmuşdur. Kiçik yaşlarından musiqinin vurğunu olan Nəriman, Naxçıvan pioner və məktəblər evinin tar dərnəyində görkəmli tarzən – pedaqoq Cəfər Rəcəbovdan xalq mahnı və rəqsləri, təsnifləri, rəngləri və muğamları çalmağı öyrənib, təhsilini Naxçıvan şəhər 1 saylı uşaq musiqi məktəbində davam etdirib. Xalq musiqisinin biliciləri Kamil Abdullayevdən not yazısını – ixtisas fənnini, Yusif Əliyevdən muğamın sirrlərini öyrənib.

Deyilənlərə görə balaca Nəriman elə uşaqlıq illərində qeyri – adiliyi ilə öz musiqi yoldaşlarından fərqlənib. Sən demə belə qeyri – adilik balaca Nərimanın böyük, geniş musiqi aləminə qədəm qoymasının ilk təzahürü imiş. Bu illərdən başlayaraq Nəriman öz istək və arzularını musiqi vasitəsilə bildirməyə cəhd göstərir, kiçik mahnı və rəqslər yaradır. Xalq şənliklərində, eləcə də şərq üçlüyün tərkibində tar çalması, xalq musiqisinə,adət və ənənələrimizə dərindən yiyələnmək üçün ona gözəl şərait yaradır. Xalq musiqisinin əsrarəngiz gözəlliyi və zənginliyi onu musiqiyə bağlayır.

A.Zeynallı adına Bakı Musiqi Texnikumunun xalq çalğı alətləri və musiqi nəzəriyyəsi şöbələrini bitirən, gənc musiqiçi kimi püxtələşən Nəriman bu illər xalq çalğı alətləri üçün ilk "Süita"sını bəstələyir. Süita görkəmli bəstəkar və dirijor Səid Rüstəmovun rəhbərlik etdiyi Azərbaycan Televiziyası və Radiosu xalq çalğı alətləri orkestrinin ifasında səslənir. Bu, gənc bəstəkarın ilk yaradıcılıq sevinci, müvəffəqiyyəti idi. Nəriman təhsilini davam etdirərək Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının tarixi – nəzəriyyə, sonralar isə bəstəkarlıq şöbələrinə daxil olaraq hər iki şöbəni müvəffəqiyyətlə bitirir. Təhsil dövrlərində o, məşhur muğam ustası Əhməd Bakıxanovdan muğamların sirrini, bəstəkarlıq sənətinin sirrlərini isə görkəmli bəstəkar Cövdəd Hacıyevdən alır.

Tələbəlik illərində yazdığı " Üzmə məni", "Meyli var", "Sevimli qız", "Balıqçılar", "Yadıma düşdü" və bir çox mahnılarının vokal sənətinin korifeyi olan Şövkət Ələkbərovanın, gözəl müğənnimiz Elmira Rəhimovanın ifalarında səslənmələri gənc bəstəkarı tez bir zamanda şöhrətləndirir. Bu dövrdə onun yazdığı simfonik əsərlərdən – " Məlik Məmməd " süitası (1958 ), " Simfoniyetta" ( 1959 ), " Dramatik poema" ( 1961 ), Azərbaycan xalq çalğı alətləri orkestri üçün iki süita ( 1959, 1961 ), kamera əsərlərindən " Simli kvartet" ( 1959 ), " Fortepiano triosu", skripka və fortepiano üçün " Sonata", romanslardan Rəsul Rzanın sözlərinə yazılmış " Mən bağışladım", " Səni sevirəm", "Dəniz" və bir çox başqa əsərləri Nəriman Məmmədovun artıq püxtələşmiş bir bəstəkar olduğunu təsdiqləyirdi. Qarışıq xor və Azərbaycan xalq çalğı alətləri orkestri üçün yazdığı " Naxçıvan" süitası ( sözləri İslam Səfərlinindir ), bəstəkarın təhsil illərinin yaradıcılıq yekunu olaraq, bu gün də öz təravətini itirməmişdir.

Nəriman Məmmədov bəstəkar Tofik Bakıxanovla birlikdə üç musiqili – komediya yazmışdır. Şair – dramaturq Adil Babayevin librettosu əsasında yazdığı " Qız görüşə tələsir" musiqili – komediyasında hər bir obrazın daxili aləmini açmaq üçün müxtəlif musiqi formalarından – mahnılardan, ariyalardan, ariozalardan, xorlardan bəstəkarlar ustalıqla, məharətlə istifadə etmişlər. Bəstəkarın Naxçıvanın teatr səhnəsi üçün bir çox tamaşalara yazdığı unudulmaz musiqi nümunələri Naxçıvanın musiqi həyatının yadda qalan, xoş hadisələrindəndir. Nəriman Məmmədovun simfonik yaradıcılığı xüsusilə zəngindir. O, yeddi simfoniya yazmışdır. Bəstəkarın dördüncü simfoniyası dahi dramaturq – şair " Hüseyn Cavidə", yeddinci simfoniyası isə Qarabağ müharibəsinə həsr edilərək proqramlı əsərlərdəndir. O, dördüncü simfoniyanı orqan və kamera orkestri üçün bəstələmişdir. Ümumiyyətlə bəstəkarın yaradıcılıq irsi çox zəngindir. O musiqinin müxtəlif janrlarında əsərlər yazmışdır. Bəstəkar – balet, 7 simfoniya, simfonik poema, 3 musiqili komediya, fortepiano və orkestr üçün 5 konsert, tar və orkestr üçün konsert, iki oratoriya, xalq çalğı alətləri orkestri üçün " simfoniyetta", süitalar, kamera musiqisi janrında bir sıra əsərlər, 25 – dən artıq dram tamaşalarına musiqi, 300 – dən artıq mahnı və romansların müəllifidir.

Onun C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində tamaşaya qoyulan Adil Babayevin " Yarımçıq şəkil" Ramiq Muxtarın " Əgər sevirsənsə", " Şəhərli kürəkən", " Üfüqlər qızaranda" və bir sıra pyeslərə bəstələdiyi musiqilər, obrazların psixoloji və fəlsəfi mənasının açılmasında mühüm əhəmiyyət kəsb etmişdir. Bəstəkarın böyüyüb, başa çatdığı doğma yurduna hər bir gəlişi, onun üçün yaradıcılıq sevincinə, naxçıvanlılar üçün isə xoş, unudulmaz xatirələrə çevrilir. "Bir unudulmaz xatirəni naxçıvanlı musiqisevərlərin yadına salmağı özümə borc bilirəm" – bu sözləri mənim müəllimim, gözəl insan, Nazim Quliyev demişdir, o belə xatırlayır:

– Muxtar respublikasının 40 illik yubileyində iştirak edən Nəriman Məmmədovu yaradıcılığına və ictimai fəaliyyətinə görə Naxçıvan Muxtar Respublikasının fəxri adına təqdim edirlər. Bəstəkar özünün ilk müəllimi, bir çox tanınmış, istedadlı musiqiçilər yetirmiş tarzən – pedaqoq, dünya işığına uşaq vaxtlarından həsrət qalan Cəfər Rəcəbova Naxçıvan Muxtar Respublikasının əməkdar artisti fəxri adı verilir. Bu hərəkəti ancaq böyük insanlıq xüsusiyyətinə malik olan bir şəxs edə bilərdi. Bəli

Nəriman Məmmədov yaradıcılığı, Nəriman Məmmədov şəxsiyyəti ilə sıx vəhdət təşkil edərək, onu azərbaycan xalqının sevimli bəstəkarı kimi yetirmişdir.

Nəriman Məmmədov lirik bəstəkardır. Heç də təsadüfi deyildir ki, bəstəkarın yaradıcılığında mahnı və romanslar xüsusi yer tutur. “ Xumar baxışlar”, “ Mən sənə qurban” və bir sıra mahnılar onu xalqımıza sevdirmişdir. Bəstəkarın fortepiano və simfonik orkestri üçün yazdığı “ Konsertləri”, oratoriyaları, kamera əsərləri, simfoniyaları və nəhayət “ Humay” baleti, onun yüksək, professional yaradıcılığından danışır. Səməd Vurğunun “ Komsomol poeması” əsasında bəstəkarın yaratdığı “ “Humay” baleti Azərbaycan Dövlət Akademik Opera və Balet teatrının səhnəsində tamaşaya qoyularaq, balet tarixinin yeni, parlaq səhifəsini açmışdır. Görkəmli bəstəkar Cövdət Hacıyev öz fikrini bu cür açıqlamışdır. – Həmişə öz çalışqanlığı, musiqiyə olan dərin məhəbbəti ilə başqalarından seçilən Nəriman Məmmədov “ Hümay” baleti ilə öz sözünü dedi, balet tariximizin yeni, parlaq səhifəsini açdı”

1996 – cı ildə bəstəkar dahi şair Məhəmməd Füzulinin 500 illik yubileyi münasibətilə “ Məhəmməd Füzuli “ oratoriyasını bəstələmişdir.(Oratoriya – xor, solist, müğənnilər və orkestr tərəfindən konsertlərdə ifa olunmaq üçün yazılmış dramatik mövzulu iri musiqi əsəridir) Oratoriya Azərbaycan Televiziyası və Radiosunun simfonik orkestri və xoru tərəfindən ifa olunmuşdur. Nəriman Məmmədovun musiqişünas kimi fəaliyyəti Azərbaycan musiqi elminə bir sıra töhfələr vermişdir. Azərbaycan Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunda elmi işçi kimi çalışan musiqişünas 40 ildən artıqdır ki, muğamlarımızı nota köçürür və onları tədqiq edir. Musiqişünasın “ Rast”, “Çahargah”, “Hümayun”, “Segah – zabul”, “ Şahnaz”, “Rahab” instrumental muğamları Bakıda, “Çahargah”, “Rast” muğamları vokal instrumental şəkildə Moskvada nəşr edilmişdir. Nəriman Məmmədovun alim Əhməd İsazadə ilə birlikdə topladığı və nəşr etdiyi “ Azərbaycan xalq mahnı və oyun havaları” adlı məcmuəsi, xalq musiqi nümunələrimizin öyrənilməsi və tədqiqi sahəsində yeni nailiyyətlərdən hesab edilir.

Bəstəkarın, bir pedaqoq kimi də musiqi mədəniyyətimizin inkişafında mühüm xidmətləri olmuşdur. O, uzun müddət A. Zeynallı adına Bakı Musiqi Texnikumunda dərs demişdir, Ü. Hacıbəyov adına Bakı Musiqi Akademiyasının dosenti kimi xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrasında dahi Üzeyir bəyin tədris etdiyi “ Azərbaycan xalq musiqisinin əsasları” və “Muğam” fənnlərini tədris etmişdir. Azərbaycanın musiqi mədəniyyətinin inkişafında Nəriman Məmmədovun xidmətləri bir bəstəkar, musiqişünas və pedaqoq kimi əvəzedilməzdir.

Görkəmli mahnı ustası, bu janrın layiqli davamçısı, Azərbaycanda tez bir zamanda şöhrət tapmış istedadlı bəstəkar Ramiz Əqil oğlu Mirişli 1934 – cü il aprel ayının 16 – da Naxçıvan şəhərində anadan olmuşdur. Balaca vaxtlarından tez – tez xalq şənliklərində olan Ramiz, meylini məlahətli kamança alətinə salır. Bir çoxları kimi musiqi məktəbinə gedir. Lakin bu çoxlarının içərisindən, Ramiz bir yaradıcı kimi seçilir. Musiqi məktəbində oxuduğu müddətdə şair İslam Səfərlinin sözlərinə yazdığı “ Dalğalar” mahnısı sanki onun yaradıcılıq zəmanətinə çevrilərək, Ramizi əvvəl A. Zeynallı adına Bakı orta ixtisas musiqi məktəbinin xalq çalğı alətləri şöbəsinə, sonra isə Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsinə gətirib çıxarır. O, tanınmış bəstəkar C. Hacıyevin sinfində bəstəkarlıqdan dərs alır. Yaradıcılıqla dolu olan bu illər gənc Ramizin bir bəstəkar kimi püxtələşməsində mühüm dövrü təşkil edir. O, bir sıra fortepiano üçün prelüdiyalar, variasiyalar, pyeslər, simli kvartetlər yaradır. Sonralar isə kamera orkestri üçün “ Simfoniya”, “ Tar və kamera orkestri üçün “Konsert” və bir sıra iri həcmli əsərlərin yaratmasına baxmayaraq, mahnı janrı bəstəkar R. Mirişlinin yaradıcılığında ana xətti əsas yerlərdən birini tutur. Onun “ Küsüb məndən”, “Oxu tar”, “ Bir könül sındırmışam”, “ Şıltaq qız”, “Mənim Arazım”, “Səadət” və bir çox mahnıları, hər bir musiqisevərin ürəyindən keçən əsl həyati epizodlar – sənət nümunələridir.

R. Mirişli Naxçıvan musiqi həyatının inkişafında da yaxından iştirak edir. C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının, H. Cavid adına Naxçıvan Poeziya teatrının səhnələrində qoyulan tamaşalar üçün yaddaqalan musiqilər yaradır. Onun musiqisini bəstələdiyi H. Cavidin “ Ana”, K. Ağayevanın “Mənim tanrım gözəllikdir, sevgidir” tamaşaları uzun illərdir ki, səhnədən düşmür.

Bəstəkarın kino musiqisi sahəsində də uğurlu yaradıcılığı diqqəti cəlb edir. “Alma – almaya

bənzər", oğlu Nazim Mirişli ilə birlikdə "Qəzəlxan" filmləri üçün yazdığı musiqilər buna parlaq misal ola bilər.

Azərbaycan Respublikasının xalq artisti görkəmli bəstəkar – pedaqoq, professor R. Mirişli uzun illər öz bilik və bacarığını Ü. Hacıbəyov adına Bakı Musiqi Akademiyası xalq çalğı alətləri şöbəsində təhsil alan gənc musiqiçilərə öyrətmişdir. Onun tərtib etdiyi " Kamança məktəbi" dərsliyindən isə musiqi məktəblərində istifadə olunur. R. Mirişlinin hər bir yeni əsəri, ilk əsərləri səviyyəsində olaraq musiqisevərlərimizə sevinc bəxş edir.Onun mahnılarını Z. Xanlarova Azərbaycan Respublikasının xalq artisti Azərbaycan Respublikasının xalq artisti İ. Rzayev, Azərbaycan Respublikasının əməkdar artistləri F. Kərimova, E. Rəhimova, Y. Səfərov və başqaları bu gün də sevə - sevə ifa edirlər.

Bəstəkarlardan Məmməd Məmmədovun, Məmməd Ələkbərovun, Rəşid Məmmədovun Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulan əsərlər üçün müntəzəm olaraq musiqi yazmaqları, onları bu sənətə daha böyük həvəs, məsuliyyətlə yanaşmağa vadar edir və tez bir zamanda bu sənətkarlar artıq Naxçıvanda istedadlı bəstəkar kimi tanınmağa başlayırlar. Bir çox tamaşalara yazdıqları musiqilərlə yanaşı, onlar müxtəlif janrlarda maraqlı əsərlər yaradırlar. Bu əsərlər konsert salonlarında ifa edilərək bəstəkarlara şöhrət gətirir.

**Nəticə**

Ümumiyyətlə, Naxçıvan musiqi mədəniyyətinin səhifələrini vərəqləyərkən, istər – istəməz istedadlı bəstəkar, pedaqoji fəaliyyətdə öz imzaları ilə tanınan Məmməd Ələkbərovun, Məmməd Məmmədovun, Rəşid Məmmədovun, Məmməd Cavadovun, Nazim Quliyevin və digər gözəl bəstəkarların özlərinə məxsus xüsusi xidmətləri və bəstəkarlıq tərzləri vardır. Bəstəkarlarımızın qəlbində Vətən sevgisi, sənət sevgisi olmasaydı onlar bu cür ürəyə yatım, qəlbləri oxşayan əsərlər bəstələməzdilər. Onlar bizim qürurumuzdurlar!

**ƏDƏBİYYAT**

1. Nazim Quliyev "Naxçıvan musiqi mədəniyyəti tarixindən"(XX əsr ) Bakı – Elm 1999
2. Nəriman Məmmədov – Vikipediya
3. "Naxçıvanın nəğməkar övladı – Nəriman Məmmədov" – "Nuhçıxan" informasiya Agentliyi. (28.12.2019 Nihad Bayramlı)

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: zamanova.afaq@bk.ru***

**Afag Zamanova**

**CREATIVE ACTIVITY OF NAKHCHIVAN COMPOSERS**

The article mentions the activities of Nakhichevan composers their creative path the names of their works, the work and activities of composers from every region of Azerbaijan, including Nakhichevan the rich shades of music in their works made a great contribution to the createvity of Azerbaijan and brought innovations. Among Nakhchivan composers composer Nariman Mammadov has his own creative path. Nariman Mammadov was a man who devoted his meaningful life to the promotion, formation and spiritual development of Azerbaijani music. In his musical works the composer praised his native land Nakhchivan. These works are "Nakhchivan“,"Chanlibel Castle on the Araks“,"Maiden Spring“,"Blooming Nakhchivan“,"Sirab“. Lyrical songs of Nariman Mamedov were performed by Rashid Behbudov, Shavket Alekbero va, Gulyaga Mamedov, Flora Kerimova and others. From his lyrical songs; "When I missed you","My heart beats“,"İ regret again“,"My eyes are looking for you“,"You love, my love“,"I have been looking at you for a long time“, "If only luck“,"Would smile on us“," If only I were your star“,"If you were offended, make peace with me“," If only there was no separation“,"Im looking for you soon“,"Im looking for you“,"Im yours“. Three musical comedies that brought great fame to the composer adorn the golden fund of Azerbaijani music. "Pari is one of six girls","Mamedali goes to the resort“,"The girl is in a hurry to meet“ the

musical was successfully staget at the Comedy Teater.

The ballet Khumay written by the composer based on the Komsomol poem of our great poet Samad Vurgun, was successfully staged on the stage of the Azerbaijan State Academic Opera and Ballet Teater in 1981 and brought great fame to its autor.

**Keywords:** *Professional composers art, lyric composer, music lover, secrets of muqam, oratorio, symphonic orchestra, choir*

**Афаг Заманова**

## ТВОРЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ НАХЧЫВАНСКИХ КОМПОЗИТОРОВ

В статье упоминается деятельность Нахичеванских композиторов, их творческий путь, названия их произведений. Творчество и деятельность композиторов каждого региона Азербайджана, в том числе Нахичевана, богатые оттенки музыки в их произведениях внесли большой вклад к творчеству Азербайджанской композиции и принесли инновации. Среди Нахчыванских композиторов свой творческий путь имеет композитор Нариман Мамедов. Нариман Мамедов был человеком, посвятившим свою осмысленную жизнь продвижению, становлению и духовному развитию азербайджанской музыки. В своих музыкальных произведениях композитор восхвалял родную землю Нахчывань. Эти произведения: “Нахчывань “Замок Чанлибель на Араксе “,”Девичий источник “, “Цветущий Нахчывань “,”Сираб “. Лирические песни Наримана Мамедова исполняли Рашид Бейбутов, Шавкет Алекберова, Гюльага Мамедов, Флора Керимова и другие. Из его лирических песен; ”Когда я скучал по тебе “,”Сердце бьется“, “Я снова сожалею“, “Мои глаза ищут тебя“, “Твоя любовь, любовь моя“,”Я давно на тебя смотрю“,”Лишь бы удача нам улыбалась“,”Был бы я твоей звездой“, “Обиделся, помирись со мной“, “Если бы не было разлуки“, “Я скоро ищу тебя“,”Я ищу тебя“, “Я твой“. Три музыкальные комедии принесшие композитору большую известность украшают золотой фонд азербайджанской музыки. “Пари одна из шести девушек Мамедали отправляется на курорт“, “Девушка спешит на встречу“ мюзикл с успехом поставлен в театре Комедии. Балет “Хумай“ написанный (сочиненный) композитором по мотивам комсомольской поэмы нашего великого поэта Самеда Вургуна, был с успехом поставлен на сцене Азербайджанского Государственного Академического Театра Оперы и Балета в 1981 году и принес большую известность своему автору.

**Ключевые слова:** *Профессиональное композиторское искусство, лирический композитор, меломан, секреты мугама, оратория, симфонический оркестр, хор.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 23.02.2025**
**Son daxilolma tarixi:17.03.2025**